

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 242 (23.884)

*28 dekabr 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin – AZƏRTAC-ın yeni binası ilə tanış olub. Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov dövlətimizin başçısına binada yaradılan şəraitlə bağlı məlumat verib.

Bildirilib ki, yeni bina Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən Bakının Atatürk prospekti 70 ünvanında inşa olunub. Bina zirzəmi qatı (avtodayanacaq) ilə birlikdə 9 mərtəbədən ibarətdir. Səkkizguşəli ulduz formasında layihələndirilmiş binada ən müasir texnoloji avadanlıqlar və ofis inventarları quraşdırılıb, yaradıcı və texniki heyətin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada beynəlxalq standartlara uyğun xəbər zalları, multimedia vasitələri ilə təchiz olunmuş studiyalar qurulub, operativ dəyirmi masa, teleizləmə sistemi təşkil edilib. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün sinxron tərcümə avadanlığı ilə təchiz edilmiş 180 yerlik konfrans zalı, 90 yerlik yeməkxana, zəngin ədəbiyyat fondu olan kitabxana, tibb və idman otaqları yaradılıb.

AZƏRTAC-ın yeni binası ilə tanışlıqdan sonra Prezident İlham Əliyev deyib: – Əməkdaşlara salam deyin.

Aslan Aslanov: – Hamısının Sizə salamları var.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası 2021-ci il dekabr ayının 29-da saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi
4. İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi
5. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
6. "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
7. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
8. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 dekabr 2021-ci il*

*Dövlət proqramı icra olunur*

## Muxtar respublikada meyvə bağlarının və yaşıllıq sahələrinin inventarlaşdırılması başa çatdırılıb



Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının əsas sahələrindən birini meyvəçilik və tərəvəzçilik təşkil edir. Bu sahənin inkişafında kompleks yanaşmanı ehtiva edən tədbirlərin sayı ildən-ilə artır və əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi daim diqqətdə saxlanılır. Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, ötən dövrdə meyvə-tərəvəz əkinlərinin sahəsi genişləndirilmiş, müvafiq sahələr üzrə məhsuldarlıq yüksəlmiş, meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı təmin olunmuşdur.

Bu müsbət tendensiyanın davamlılığını təmin etmək, meyvə-tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılmasına, müvafiq sahədə ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsinə, müasir texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin qurulmasına nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planında digər qurumlarla yanaşı, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin qarşısına da müəyyən vəzifələr qoyulmuşdur.

Muxtar respublika ərazisində mövcud meyvə bağları və yaşıllıq sahələrinin inventarlaşdırılması məqsədilə işçi qrupu yaradılmış, kameral şəraitdə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan (həyətyanı torpaq sahələri istisna olmaqla) meyvə bağları və yaşıllıq sahələrinin əraziləri müəyyənləşdirilmişdir. Xidmətin mütəxəssisləri tərəfindən ərazi vahidləri üzrə ölçmə-dəqiqləşdirmə işləri aparılmış, meşə, meşə zolağı və çoxillik əkmələrin mülkiyyət növləri və sahələri dəqiqləşdirilmişdir. Həmin ərazilərin mülkiyyət növləri və uqodiyalar üzrə xəritələri hazırlanmış, eksplikasiyası tərtib olunmuşdur.

Meşə sahələrinin inventarlaşdırılması zamanı Şərur rayonu üzrə 300, Babək rayonu üzrə 528, Ordubad rayonu üzrə 171, Culfa rayonu üzrə 229, Şahbuz rayonu üzrə 2735 və Naxçıvan şəhəri üzrə 32 hektar, ümumilikdə, muxtar respublika üzrə 3995 hektar meşə sahəsi müəyyənləşdirilərək xəritələşdirilmişdir.

Bundan əlavə, muxtar respublika üzrə 888 hektar yaşıllıq zolağı müəyyən edilərək xəritələşdirilmişdir ki, bunun 110 hektarı Şərur, 259 hektarı Babək, 50 hektarı Ordubad, 118 hektarı Culfa, 34 hektarı Şahbuz, 71 hektarı Kəngərli, 38 hektarı Sədərək rayonlarının, 208 hektarı isə Naxçıvan şəhərinin ərazisində qeydə alınmışdır. 2010-cu illə müqayisədə yaşıllıq zolaqlarının sahəsi 2,4 dəfə və ya 517 hektar artmışdır.

Həyətyanı torpaq sahələrində salınmış meyvə bağları istisna olmaqla bütün mülkiyyət növləri üzrə plana alınmış 2359 hektar çoxillik əkmələrin 2004 hektarı meyvə bağları, 355 hektarı üzümlüklər olmuşdur. Şərur rayonu üzrə 471 hektar meyvə bağı, 10 hektar üzümlük, Babək rayonu üzrə 440 hektar meyvə bağı, 301 hektar üzümlük, Ordubad rayonu üzrə 160 hektar meyvə bağı, 2 hektar üzümlük, Culfa rayonu üzrə 175 hektar meyvə bağı, 19 hektar üzümlük, Şahbuz rayonu üzrə 151 hektar meyvə bağı, 13 hektar üzümlük, Kəngərli rayonu üzrə 301 hektar meyvə bağı, 6 hektar üzümlük, Sədərək rayonu üzrə 189 hektar meyvə bağı, 2 hektar üzümlük, Naxçıvan şəhəri üzrə 117 hektar meyvə bağı, 2 hektar üzümlük plana alınmışdır.

2010-cu illə müqayisədə çoxillik əkmələrin sahəsi 82 faiz və ya 1228 hektar artırılaraq həyətyanı torpaq sahələrində salınmış meyvə bağları ilə birlikdə 6793 hektara çatdırılmışdır.

Muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri ilə birlikdə Ordubad rayonunun Çənnəb, Babək rayonunun Yuxarı Uzunoba və Culfa rayonunun Dizə kəndlərində maarifləndirici tədbirlər keçirilmişdir. Torpaqların qida maddələri ilə təmin olunmasına dair yenilənmiş kartoqramlar Ordubad rayonunun Çənnəb, Üstüpü və Aza, Babək rayonunun Şıxmahmud və Yuxarı Uzunoba, Culfa rayonunun Dizə və Şurud bələdiyyələrinə təqdim edilmişdir.

Görülən işlər deməyə əsas verir ki, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası yeni meyvə bağlarının salınmasına şərait yaradıb, bu sahəyə aid məhsulların idxalını aradan qaldırıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## "Erasmus+" layihəsi çərçivəsində görüş



Azərbaycanda ali təhsilin keyfiyyətinin yaxşılaşdırılması və Avropa təhsil sisteminə inteqrasiyası məqsədilə universitet rektorlarının fəaliyyətinin ələqələndirilməsi istiqamətində işlər davam etdirilir. Bu istiqamətdə görülən işlərdən biri də Avropa Komissiyasının "Erasmus+" proqramı çərçivəsində Ali Təhsildə Potensialın gücləndirilməsi profili üzrə qrant müsabiqəsidir. Bakı Biznes Universitetinin koordinatoru olduğu "Azərbaycanda rektorlar konfransı" layihəsi müsabiqənin qalibi adına layiq görülüb. "Naxçıvan" Universitetində bununla bağlı əldə olunan nəzəri nəticələrin müzakirəsi, qiymətləndirilməsi və gələcək fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, layihənin məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq rektorlar konfransı vasitəsilə universitetlər arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirməkdir. Rektor qeyd edib ki, layihə yerli və Avropa universitetləri arasında əməkdaşlığın yeni formatlarını müəyyənləşdirəcək, növbəti mərhələlərdə Azərbaycan universitetləri bir sıra beynəlxalq qurumların üzvü olmaq şansını əldə edəcək.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək Bakı Biznes Universitetinin koordinatoru olduğu sözügedən layihənin qarşıya qoyulan hədəflər və layihənin əhatə dairəsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini və ali təhsil sisteminin inkişafına töhfələr verəcəyini söyləyib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov layihənin beynəlxalq əhəmiyyətinə və ali təhsil müəssisələrinin inkişafına verəcəyi töhfələr baxımından önəminə toxunaraq uğurla həyata keçiriləcəyinə inandığını vurğulayıb.

Milli Erasmus Ofisinin rəhbəri Pərviz Bağırov "Erasmus+" çərçivəsində həyata keçirilən Rektorlar Konfransı barəsində beynəlxalq təcrübəni bölüşüb.

Bakı Biznes Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Eşqin Bayramov, həmin universitetin Universitet-sənaye əməkdaşlığı departamentinin direktoru, layihənin koordinatoru Gülşən Bayramova çıxış edərək layihənin ümumi məqsədi, hədəfləri, iş planları, eləcə də yerli və xarici tərəfdaşları barəsində, ali təhsil müəssisələrində əməkdaşlıq, əlaqə və şəbəkələşmə sahəsində aparılmış tədqiqatın nəticələrinə dair hesabatlar barədə məlumat veriblər.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Xəzər Universiteti və Odlar Yurdu Universitetinin prorektorları çıxış ediblər.

Sonda universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli çıxış edərək tələbələr və rəhbərlik arasında ortaq proqramlar yaratmaq, artan mobilliyi asanlaşdırmağı hədəfləyən milli şəbəkəni formalaşdırmaq baxımından layihənin əhəmiyyətini xüsusilə qeyd edib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***



***Bu gün ölkəmizdə həyata keçirilən Dövlət proqramları və islahatlar çərçivəsində təhsilin inkişafı öndə dayanıb. Təhsildə idarəetmə, müəllim hazırlığı və digər sahələrin inkişafına xüsusi diqqət yetirilməsi də bunun ifadəsidir. Muxtar respublikada da təhsilə qayğı prioritet vəzifəyə çevrilib. Müstəqillik qazandığımız illərdə bu sahədə əldə etdiyimiz uğurları isə təhsilin bütün pillələrində görmək olar. Belə təhsil ocaqlarından biri də Naxçıvan Dövlət Texniki Kollecidir. Kollec haqqında ətraflı məlumat almaq üçün yollandıq elə həmin ünvana. Kollecin direktoru Asəf Ruşanovla həmsöhbət olduq.***

*Təhsil millətin gələcəyidir*

# İxtisaslı kadr hazırlığı inkişafda başlıca amillərdən biridir

Müsahibim bildirdi ki, hazırda fəaliyyətini Naxçıvan Dövlət Texniki Kolleci kimi davam etdirən bu orta ixtisas təhsili müəssisəsi 25 fevral 1925-ci ildə Naxçıvan Muxtar Respublikasının IV Sovetlər qurultayında "Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılması haqqında" Qərarın qəbul edilməsindən sonra yaradılıb. Həmin qərara əsasən 1925-1926-cı tədris ilində Naxçıvan Kənd Təsərrüfatı Texnikumu Kənd təsərrüfatının mexanikləşdirilməsi və Aqronomluq ixtisasları üzrə 41 nəfər tələbə ilə fəaliyyətə başlayıb. 1971-ci ilin sentyabr ayınadək Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi fəaliyyətini davam etdirərək müxtəlif ixtisaslar üzrə kadr hazırlığı ilə məşğul olub. Həmin il texnikum Babək rayonunun Şıxmahmud kəndinə köçürülərək burada toxumçuluq sovxozu ilə birləşdirilib və M.Hüseynzadə adına Naxçıvan Sovxoz Texnikumu adını daşıyıb. Direktorun sözlərinə görə o illərdə texnikuma ölkəmizin digər rayonlarından və qonşu respublikalardan olan soydaşlarımız da təhsil almaq üçün gəlirdilər. Həmin vaxtdan 1990-1991-ci tədris ilinədək texnikum fəaliyyətini davam etdirib. Lakin aqrar islahatların başlanması və ictimai təsərrüfatların ləğv olunması ilə əlaqədar olaraq adıçəkilən orta ixtisas müəssisəsi 1991-ci ilin sentyabr ayında Naxçıvan şəhərində yerləşən tələbə yataqxanasına köçürülüb və Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adını daşıyıb, fəaliyyətini davam etdirib. 3 may 1997-ci ildən 11 sentyabr 1999-cu ilədək Naxçıvan Aqrar Sənaye Kolleci və 15 sentyabr 1999-cu il tarixdən 25 oktyabr 2002-ci ilədək yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adı altında kadr hazırlığı ilə məşğul olub. O illərdə muxtar respublikanın ehtiyac duyulan idarə, müəssisə və təşkilatları üçün yüzlərlə mütəxəssis burada təhsil alıb. Texnikum 26 avqust 2002-ci ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Naxçıvan Dövlət Texniki Kollecinə çevrilib və 25 oktyabr 2002-ci il tarixdən bu günədək bu ad altında fəaliyyətini davam etdirir.

Öyrənirik ki, təhsil ocağında tədrisin keyfiyyətinin yüksəldilməsini daim diqqətdə saxlayan muxtar respublika rəhbərinin qayğısı ilə kollec üçün ayrılmış bina əsaslı yenidənqurmadan sonra 10 oktyabr 2016-cı ildə tələbə və müəllimlərin istifadəsinə verilib.

Açılış zamanı Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***"Bu gün muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırmışdır. Bu amillər, eləcə də texniki fənlərə artan maraq nəzərə alınaraq Şərur rayonunda Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmış, ali və orta ixtisas təhsili müəssisələrində yeni texniki ixtisaslar açılmışdır. Bundan sonra da muxtar respublikada texniki təhsilin məzmunu müasir tələblər baxımından yeniləşdirilməli, ixtisaslaşma aparılmalı, kadr hazırlığı əmək bazarının tələblərinə uyğun qurulmalıdır".***

Beşmərtəbəli müasirtipli, 784 yerlik təhsil müəssisəsində 15 elektron lövhəli sinif otağı, kimya-biologiya, fizika, baytarlıq və innovasiya laboratoriyaları, internetə qoşulmuş 71 kompüterlə təchiz olunmuş 3 kompüter otağı, 14 fənn kabinəsi və 120 yerlik iclas zalı fəaliyyət göstərir. Kollecin kitabxanası 8880 ədəd kitab fonduna malikdir ki, burada ümummilli lider Heydər Əliyevə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həsr edilmiş guşələr yaradılıb. Oxunması zəruri olan kitablara və qədim diyarımız Naxçıvana həsr edilmiş guşələr də öz zənginliyi ilə seçilir. Kitabxanada "Dərsliklər", "Bədii ədəbiyyatlar", "Ensiklopediyalar", "Lüğətlər", "Tarix" və "Dilçilik" adında 6 bölmə yaradılıb. Kollecin tədbirlər planına uyğun olaraq müəllim və tələbə kollektivi arasında Oxunması zəruri olan kitabların müzakirələri keçirilir, tarixi və əlamətdar günlərlə bağlı tədbirlər təşkil olunur. Bu da tələbələrin dünyagörüşünün artırılmasına, intellektual səviyyələrinin yüksəldilməsinə şərait yaradır.

İxtisaslı kadr hazırlığının sosial-iqtisadi inkişafda başlıca amil olduğunu diqqətdə saxlayan və qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün yaradılan şəraitdən səmərəli istifadə edən kollektivin uğurları getdikcə artmaqdadır. Onu da qeyd edək ki, orta ixtisas təhsili müəssisəsində müasir dövrün tələblərini nəzərə alaraq muxtar respublikanın əmək bazarının ixtisaslı kadrlarla təminatını ödəmək üçün hər il yeniliklərə imza atılır.





Asəf müəllimin sözlərinə görə, 2021-2022-ci tədris ilindən kollecin qəbul planında dəyişiklik edilib, 5 yeni Telekommunikasiya və kompüter sistemlərinin informasiya təhlükəsizliyi, Nəqliyyat vasitələrinin texniki istismarı, Lokomotiv və elektrik qatarı təsərrüfatı, Bələdiyyə işi və Aqrar təsərrüfatın təşkili ixtisasları olmaqla, hazırda, ümumilikdə, 13 ixtisas üzrə tədris aparılır. Bununla da yeni ixtisaslar hesabına qəbul planı 158-dən 183-ə qədər artıb. Kollecin uğurlarından biri də subbakalavrların ali təhsil ocaqlarına qəbuludur. Belə ki, 2019-2020-ci tədris ilində təhsil almaq üçün 44, 2020-2021-ci tədris ilində təhsil almaq üçün 73, 2021-2022-ci tədris ilində təhsil almaq üçün isə 180 nəfər ali təhsil müəssisələrinə qəbul olunub.

Müsahibim deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" və 3 aprel 2019-cu il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" sərəncamlarına uyğun olaraq Naxçıvan Dövlət Texniki Kollecində tədris olunan 13 ixtisas müvafiq təşkilatlara hamiliyə verilib. Müəyyən edilmiş qrafik əsasında kollecin tələbələri aidiyyəti qurumlarda olur, gələcəkdə fəaliyyət göstərəcəkləri ixtisaslar üzrə praktik məşğələlərə cəlb edilirlər. Bu da tədris məşğələlərində verilən nəzəri biliyin daha dərindən mənimsənilməsinə öz təsirini göstərir.

Öyrənirik ki, kollecin rəsmi internet saytı da fəaliyyətə başlayıb. Əgər 2020-2021-ci tədris ilində kollecə qəbul olunanlar içərisində minimum bal 92 olmuşdursa, cari tədris ilində bu göstərici 108 bal təşkil edib.

Kollecdə STEAM təhsil metodunu tədris edən ***Leylan Məmmədova*** ilə həmsöhbət olduq. O bildirdi ki, Ali Məclis Sədrinin 2021-ci il 7 iyun tarixli "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə muxtar respublikanın təhsil sahəsində yeni bir eranın başlanğıcını qoyub. Sərəncamın icrasının təmin edilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəbləri və liseyləri ilə yanaşı, ali və orta ixtisas təhsili müəssisələrində də STEAM kabinələri yaradılıb. Elə kollecdə də yaradılan kabinə yüksək səviyyədə dizayn edilmiş zəruri mebel avadanlıqları, 1 ədəd elektron lövhə, 2 ədəd kompüter, 1 ədəd 3D printer, STEAM əsaslı robot dəsti, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təmin olunub. Qeyd edim ki, STEAM yanaşmasının məqsədi aktiv, məhsuldar, tənqidi düşünməyi bacaran, bildiklərini ortaq bir istiqamətə yönəldən, məhsulu ilə ölkəsinin iqtisadiyyatına dəstək olan, bir sözlə, dünyaya fayda verə biləcək insanlar yetişdirməkdir. STEAM-ın müsbət tərəfləri olduqca çoxdur. Onun tədrisi düşünmə, əməkdaşlıq, ünsiyyət, yaradıcılıq və yenilikçilik, informasiya və kommunikasiya bacarıqlarını inkişaf etdirir. Bu bacarıqlar şagirdlərin mürəkkəb problemləri təhlil edə bilməsi, dəqiq cavabları olmayan sualları araşdırması, məlumat mənbələrini fərqli baxışlardan qiymətləndirməsi və dəlillərə əsaslanaraq müvafiq nəticələr çıxara bilməsinə yardımçı olur. Komandalar halında səmərəli işlə ortaq bir hədəfə çatmağa, uyğun informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək məhsul istehsal edə bilməyə, bir sözlə, hərtərəfli inkişafa kömək edir və şagirdləri gələcəkdə səmərəli insan resursu olaraq tutacaqları mövqelərə hazırlayır. Təhsildə başlıca simanın müəllim olduğu məlum bir həqiqətdir. Kollecdə bu məsələ də diqqətdə saxlanılır. Bu gün orta ixtisas müəssisəsində çalışan müəllimlərin 1-i fəlsəfə doktoru, 1-i isə Əməkdar müəllimdir.

Hazırda kollec qış imtahan sessiyasına hazırlaşır. Cari semestrdə 556 tələbə 172 fənn üzrə imtahan verəcək. Bu semestri də müvəffəqiyyətlə başa vurmaq üçün hərtərəfli imkanlar yaradılıb. Kollektiv əmindir ki, qış imtahan sessiyası uğurla başa çatacaq.

*Muxtar respublika rəhbərinin təhsilin inkişafı sahəsində gördüyü işlər gələcəyin etibarlı təminatıdır. Çünki təhsil gələcəyin təməlidir. Sabahını düşünərək qarşıya qoyduğu hədəflərə doğru irəliləyən insan nə qədər əzmkar və nikbin təsir bağışlayırsa, gələcəyi üçün bu gündən daha etibarlı, möhkəm təməl formalaşdıran, vətəndaşları üçün layiqli həyat tərzi qurmağa çalışan dövlət də bir o qədər qüdrətli görünür. Elm və təhsildən bəhrələnməyi bacaran cəmiyyət həmişə firavan yaşayır. Təhsilə, elmə marağı ilə bu təməli yeni nailiyyətlərlə möhkəmləndirmək isə hər bir Azərbaycan vətəndaşının mənavi borcudur.*

**Aytac CƏFƏRLİ**

*2021-ci il "Nizami Gəncəvi ili"dir*

# Nizami Gəncəvi yaradıcılığında kimya

Xalqımızın mütəfəkkir, filosof şairi, dünya ədəbiyyatının əlçatmaz, ünyetməz zirvələrindən biri olan Nizami Gəncəvi poeziyasında açılmamış səhifələr çoxdur. Bu səhifələrdə XII əsr Azərbaycan elmində tətbiqi kimyanın cücərtiləri də özünə yer alıb. "Xəmsə"ni dərindən oxuyub düşündükcə bu cücərtilərin təzahür formalarına rast gəlirik. Bu isə böyük şairi kimyadan xəbərdar bir alim kimi tədqiq etməyə imkan verir.



Məlumdur ki, kimyanın və ümumiyyətlə, təbiət elmlərinin ən böyük qanunlarından biri olan "Maddə kütləsinin saxlanması" qanunu 1748-ci ildə rus alimi M.V.Lomonosov tərəfindən kəşf edilmişdir. "Təbiətdə baş verən bütün dəyişikliklər nəticəsində bir cisimdən nə qədər maddə ayrılırsa, başqa bir cismə həmin miqdarda maddə birləşir" şəklində ifadə edilir. Dini ideyaların güclü olduğu XII əsrdə Nizami Gəncəvi qətiyyətlə yazırdı:

*Torpaqda çürüyən bədənlərimiz*
*Dağılır, dəyişir, məhv olmur təmiz.*
*Yerində qalarsa, o dağıntılar,*
*Bir yerə yığanda yenə canlanar.*

Cəsarətlə deyilmiş bu fikir "Maddə kütləsinin saxlanması qanunu"nu tam əks etdirir. Canlı orqanizmlərin çürüməsi kimyəvi proses olduğundan daha şairin bu qənaətini M.V.Lomonosov kəşfindən qiymətli hesab etmək olar.

Bu qanun, həmçinin 1789-cu ildə fransız alimi Antuan Launazye tərəfindən də müəyyənləşdirilmişdir. Elmi əsərlərdə bu qanunun başqa alimlər tərəfindən də təcrübədə təsdiq olunması qeyd edilsə də, qanunun ilk dəfə Nizami Gəncəvi əsərlərində əsaslandırılması haqqında heç bir məlumat yoxdur.

Nizami dövrünün filosofları dünyanın əmələ gəlməsini dörd ünsürün – torpaq, su, hava və odun vəhdətində görürdülər. Dünyanın əmələ gəlməsi haqqındakı fikirlər mütəfəkkir şairin "Sirlər xəzinəsi" və "İsgəndərnamə" əsərlərində əsaslandırılmış şəkildə verilmiş, bu isə o dövrün məşhur yunan filosoflarını arxada qoymuşdur.

Maddələrin daha kiçik hissəciklərdən ibarət olması faktı XIX əsrin sonu və XX əsrdə tam şəkildə öyrənilmişdir. Maddələrin daha kiçik hissəciklərə parçalanması və parçalanmaqla davam etməsi hazırda hamı tərəfindən qəbul olunmuşdur. Lakin bunun səkkiz əsrdən çox müddət əvvəl Nizami Gəncəvi tərəfindən şübhə altına alınması şairin böyük uzaqgörənliyinin nəticəsidir:

*O şey ki, bizlərə lap aşikardır,*
*Orda da gizli bir xəzinə vardır.*

XII əsrdə elmə on kimyəvi element məlum idi. Bu elementlərin bir çox birləşmələri insanlar tərəfindən istifadə edilirdi. "Xəmsə"də qızıl, dəmir, qurğuşun, mis, qalay, gümüş, sürmə, kükürd kimi elementlərdən bədii vasitə və bənzətmə kimi istifadə edilmişdir:

*Qızılı saymaqda bil ki, səhvin var,*
*Dünyanın gözünü ağıl parladar.*



*("Yeddi gözəl")*

*Misə qızıl qatmaq nəyə gərəkdir,*
*Mis yenə özünü göstərəcəkdir.*

*("Xosrov və Şirin")*

"Xəmsə"dəki bir çox bənzətmələrdə civə və onun xassələrindən bədii təsvir vasitəsi kimi istifadə edilmişdir. Civə maye halında olan yeganə metaldır, parlaqdır, su kimi axıcıdır, həm zərərli, həm də dərman kimi təsir edən maddədir. "Daranın sərkərdəsi tərəfindən öldürülməsi" hissəsindən olan bir beytdə oxuyuruq:

*Civətək parlayan polad qılıncdan*
*Civətək qaçardı hər yerdə insan.*

"İqbalnamə"də İsgəndərlə Sokratın əhvalatı" adlı parçadan bir beyt:

*Sokrat verdi ona gümüştək cavab,*
*Dedi ki, qulağa tökülməz simab.* Sonuncu misrada verilmiş "Simab" civə deməkdir.

Şair obrazlı təsviri gücləndirmək üçün kükürd və onun xassələrini də poeziyaya gətirir:

*Kükürdün tozutək qup-quru çöllər,*
*Cəhənnəm kimiydi yanırdı ürək.*

və ya

*Başqaymış torpağın tərkibi yəqin,*
*İçində kükürd də varmış o yerin.*

Nizami Gəncəvi əsərlərinin elmi mahiyyəti, xalqımızın bu gününə, tarixi keçmişinə qara yaxanları yandırıb-yaxan, süngüləyən tutarlı cavabdır. "Xəmsə" göstərir ki, bir çox xalqlar ibtidai icma həyatı sürdüyü vaxt Azərbaycan xalqı filizlərin yerdən çıxarılmasını, metal emalını həyata keçirmişdir. Bütün bunlar isə Azərbaycan xalqının ən böyük, ən qədim bir xalq olduğunu bir daha sübut edir və göstərir ki, xalqımız qədim mədəniyyətə, hərtərəfli inkişaf etmiş elmə, iqtisadiyyata malik yenilməz xalqdır.

**Yunis QULİYEV**
***təqaüdçü müəllim***

***Bu gün muxtar respublikamızda nümunəvi ailə təsərrüfatı institutu formalaşıb. Xüsusilə ailə təsərrüfatlarının inkişaf etdirilməsi ilə bağlı dövlət tərəfindən atılan mühüm addımlar bu cür fəaliyyət sahələrinə marağın kütləviliyini təmin edib. Səbəb isə çox sadədir: dövlət iqtisadiyyatın daxili imkanlar hesabına inkişafında, əhalinin məşğulluq məsələlərinin həllində, bir sözlə, özəl sektorun inkişafında maraqlıdır, sahibkar isə onun üçün yaradılmış şəraitdən istifadə etməyə çalışır. Nəticədə, hər iki tərəf qazanır.***

## Ailə təsərrüfatları daxili iqtisadiyyatın mülkiyyətçilik prinsipləri əsasında inkişafına zəmin yaradır

Vurğulamaq lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həm rəsmi olaraq qəbul etdiyi qərarlar, həm də birbaşa tövsiyə və tapşırıqları nəticəsində son illərdə yüzlərlə ailə təsərrüfatı yaranıb və ya mövcud olanlar fəaliyyət imkanlarını genişləndirib. Təsadüfi deyil ki, ailə təsərrüfatlarının ildən-ilə sayının artması, ilk növbədə, müvafiq dövlət qurumlarının təsərrüfatlara göstərdiyi lazımi dəstək və istehsal olunan məhsulun satışının təşkilidir. Bildiyimiz kimi, muxtar respublikamızda hər həftənin şənbə və bazar günləri təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkasında satılan məhsulların böyük bir hissəsini torpaq mülkiyyətçiləri və yaxud ailə təsərrüfatları tərəfindən istehsal olunan məhsullar təşkil edir. Bundan əlavə, ənənəvi olaraq artıq bir neçə ildir, davam edən “Ailə təsərrüfatı məhsulları” festivalları və ya satış yarmarkaları artıq bu sahədə ixtisaslaşmış mühüm tədbir kimi özünü təsdiq edib. Burada diqqət edilməli məqam isə ondan ibarətdir ki, bu cür festival və ya satış yarmarkaları ailə təsərrüfatlarının inkişaf etdirilməsinə dövlətin məxsusi yanaşmasıdır. Çünki muxtar respublikada fəaliyyət göstərən ailə təsərrüfatları məhsulları onsuz da ilboyu həftə sonları təşkil edilən yarmarkalara çıxarılır. Eyni zamanda bu cür məhsulların satışı üçün təmənnasız olaraq bütün ticarət şəbəkələrində yer ayrılır və ailə təsərrüfatı sahibləri öz məhsullarını burada da sata bilirlər. Amma ildə bir dəfə, həm də payız mövsümündə ailə təsərrüfatı məhsulları üçün festival və ya satış yarmarkalarının təşkil olunması bir sıra özəllikləri ilə seçilir. Birinci ona görə ki, muxtar respublika rəhbəri hər dəfə belə tədbirlərdə şəxsən iştirak edərək həm il ərzində yeni fəaliyyətə başlayan ailə təsərrüfatı sahibləri, həm də onların istehsal etdikləri məhsullarla yaxından tanış olur. Digər tərəfdən həmin təsərrüfat sahibləri ilə yaxından maraqlanaraq onlara lazımi dəstək üçün yerindəcə müvafiq dövlət qurumlarının rəhbərlərinə tapşırıqlarını verir. Amma işlər bununla bitmir. Məsələn, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, cari ilin yanvar-noyabr aylarında Sahibkarlığın İnkişafı Fondu tərəfindən heyvandarlıq, arıçılıq, bağçılıq, limonçuluq təsərrüfatlarının, unlu-qənnadı məmulatların, süd məhsullarının istehsalı, meyvə-tərəvəzin konservləşdirilməsi, yabanı bitkilərin konservləşdirilməsi, meyvələrin qurudulması, kompost istehsalı sahəsinin yaradılması məqsədilə 72 ailə təsərrüfatına 1 milyon 76 min 700 manat dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 4500 ədəd 27 çeşiddə tara ilə təmin edilib. Bundan əlavə, ailə təsərrüfatlarında istehsal olunan məhsulların tanıdılması, təşviqi və sərgisi məqsədilə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda 55 ailə təsərrüfatının 19 növdə 87 çeşiddə məhsulunun nümayişi təmin olunub. Məhz yaradılmış belə şərait ailə təsərrüfatı məhsullarının ildən-ilə çeşidinin artması, eyni zamanda istehsal həcminin çoxalması ilə nəticələnir. Bu il noyabrın 20-si və 21-i “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Ailə təsərrüfatı məhsulları” satış yarmarkasına 453 ailə təsərrüfatı tərəfindən 540 çeşiddə 41 mindən çox qablaşdırılmış məhsul çıxarılması bunu bir daha təsdiq edir.





Qəzet əməkdaşları olaraq hər zaman ailə təsərrüfatı sahibləri ilə söhbətlərimizdə daim bu fikirlərin şahidi oluruq ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişaf etdirilməsinə dövlət qurumları tərəfindən böyük qayğı göstərilir. Məhsulun istehsalından və qablaşdırılmasından tutmuş satışınadək bu dəstəyi ailə təsərrüfatı sahibləri öz üzərlərində hiss edirlər. Bununla yanaşı, ailə təsərrüfatı birliklərini bu qədər cəlbedici edən tərəflərdən biri də böyükhəcmli maliyyə imkanlarına ehtiyac olmadan özəl mülkiyyətçiliyə sahib olma fürsətləri təqdim etməsidir. Məlumdur ki, bazar prinsiplərinə, özəl mülkiyyətçiliyə əsaslanan iqtisadi inkişaf alternativi olmayan inkişafdır. Ailə təsərrüfatçılığı isə bu cür mülkiyyətçiliyin formalaşmasına cığır açan çox böyük iqtisadi imkandır. Eyni zamanda ailə təsərrüfatçılığı sahibkarlıq davranışlarını formalaşdıran özəl fəaliyyət sahəsidir. Bu gün muxtar respublikada ümumi daxili məhsul istehsalının 88 faizi özəl bölmənin payına düşür. Həmçinin məşğul əhalinin 85 faizi də özəl sektorda çalışır. Aqrar sahədə isə məhsul istehsalının 100 faizə yaxını özəl mülkiyyətə əsaslanır. Bu isə o deməkdir ki, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşan ailə təsərrüfatlarının mülkiyyətçilik prinsipləri üzərində inkişaf etdirilməsi yaxın gələcəkdə rəqabətqabiliyyətli sahibkarlıq subyektlərinin sayının artmasına imkan verəcək. Nəticədə, daxili iqtisadiyyatın mülkiyyətçilik prinsipləri əsasında inkişafı onun dayanıqlılığını daha da artıracaq.

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Beynəlxalq onlayn elmi konfrans olub



Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Naxçıvan beynəlxalq ticarət və logistika mərkəzi kimi” mövzusunda beynəlxalq onlayn elmi konfrans keçirilib. Tədbirdə çıxış edən ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qeyd edib ki, konfrans universitetdə yeni açılan və gələcək perspektivləri yüksək olan Beynəlxalq ticarət və logistika ixtisasının əsas məqsədi qloballaşan dünyada olan beynəlxalq bazarları, ticarəti və xüsusilə də beynəlxalq yükdaşımanı öyrənmək və nəzəri biliklərini biznesin müxtəlif sahələrində praktik olaraq tətbiq etmək bacarığı olan kadrlar yetişdirməkdən ibarətdir. Rektor qitələrarası inteqrasiyanın təmin edilməsində İpək Yolunun əhəmiyyətini diqqətə çəkərək beynəlxalq İpək Yolunun üzərində yerləşən türkdilli dövlətlərin təşəbbüsü ilə reallaşan enerji, nəqliyyat və infrastruktur layihələrinin önəmindən bəhs edib.

İqtisad elmləri doktoru, professor Teymur Abbasov “Naxçıvanın nəqliyyat logistika mərkəzinə çevrilməsi işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafında əsas amildir” mövzusunda çıxışı zamanı diqqətə çatdırıb ki, Şuşa Bəyannaməsində qeyd olunan müddəalara əsasən Naxçıvanın yaxın gələcəkdə beynəlxalq ticarət və logistikanın mərkəzinə çevriləcəyi şübhəsizdir. Bildirilib ki, Azərbaycan və Türkiyəni Naxçıvan vasitəsilə birləşdirən Zəngəzur dəhlizinin açılması əlaqələrin intensivləşməsinə mühüm töhfə verəcək.

Azərbaycan Dövlət İqtisad Universitetindən konfransa onlayn qoşulan iqtisad elmləri doktoru, professor Mübariz Bağırov “Naxçıvanın logistika mərkəzi kimi inkişaf perspektivləri” mövzusunda çıxış edib, Naxçıvanda regional əhəmiyyətli logistika və ticarət qovşağının yaradılması, onun aparıcı mövqeyinin bu ərazidə təmin edilməsi barədə danışıb.

Tədbirdə onlayn olaraq çıxış edən Ərzurum Atatürk Universitetinin professoru Kərəm Qarabulut “Qars-İqdır-Naxçıvan-Bakı dəmir yolu inkişafında Naxçıvanın körpü rolu” mövzusunda danışaraq qeyd edib ki, bu kommunikasiya, xüsusilə iki ölkənin kiçik və orta biznesinin inkişafında mühüm rol oynayacaq.

Konfransın digər onlayn iştirakçılarından Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, iqtisad elmləri doktoru, professor Rəsul Balayev “Beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyalardan istifadə perspektivləri” mövzusundakı çıxışında bildirib ki, investisiya siyasəti inkişafın strukturunu təyin edən əsas amildir. Bu istiqamətlərdə görülən işlərdə rəqəmsal texnologiyalardan istifadə etmək zəruridir.

Konfrans bölmə iclasları ilə davam edib.

***Naxçıvan Dövlət Universitetinin mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Silsilə bayram tədbirləri keçirilir

Naxçıvan Qarnizonu qoşunlarında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə silsilə tədbirlər keçirilir. Tədbirlər Naxçıvan Muxtar Respublikasında yerləşən bütün birləşmə, hissə və bölmələrdə, Təlim-Tədris Mərkəzlərində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonunun tam orta məktəbində və uşaq bağçalarında təşkil olunub.




Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hərbi hissələrindən birində keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasının ictimaiyyət, mədəniyyət və mətbuat nümayəndələri şəxsi heyətin sosial-məişət şəraiti və döyüş növbətçiliyi ilə tanış olub, dərs və məşğələləri izləyiblər.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabitləri və ictimaiyyət nümayəndələri çıxış edərək şəxsi heyəti təbrik edib, yeni – 2022-ci ilin daha böyük uğurlarla yadda qalmasını arzulayıblar. Çıxışlarda bildirilib ki, milli birliyimiz, həmrəyliyimiz 44 günlük Vətən müharibəsində qazanılan qələbədə özünü bir daha göstərdi.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının üzvləri əsgərlər qarşısında çıxış edərək şəxsi heyətdə xoş ovqat yaradıblar.

**Nəriman NƏCƏFOV**

## Bayram yarmarkasında bayram ovqatı

Günlər həftələri, həftələr ayları əvəz edir və bir də görürük ki, artıq bir ili başa vurmuşuq. Köhnə ili necə yola salsan, yeni ili də elə qarşılayarsan, – deyiblər. Yurdumuzun insanları hər bayramda olduğu kimi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını da sevinclə qarşılayır. Artıq iki ildir ki, bu bayramı qalib xalq olaraq qeyd edirik.

Naxçıvan şəhərindəki Mərkəzi bazarda təşkil olunan bayram yarmarkasının elə ilk günündə buraya gələnlərin ardı-arası kəsilmirdi. Sakinlər keyfiyyəti ilə seçilən yerli məhsulları buradan münasib qiymətə ala bilirdilər. İstehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunurdu. Yarmarkanın təşkilində məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.

Yarmarkada bir neçə satıcı və alıcı ilə həmsöhbət olduq. Şərur rayonunun Axura kəndindən gəlmiş ailə təsərrüfatçısı ***Gülsüm Qafarova***nın dedikləri:

– Yarmarkaya məhsul gətirənlərə hərtərəfli şərait yaradılıb. Səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Burada məhsulları bazar qiymətindən 10-15 faiz ucuz təklif edirik. Altı ildən artıqdır ki, ailə təsərrüfatı sahibiyəm. Şərur rayonunun bərəkətli torpaqları var. Bir əkən min götürür. Meyvə quruları istehsalı ilə məşğuluq. Bağımızdan topladığımız meyvələri xüsusi şəkildə qurudur və qablaşdırırıq. Yarmarka başlayan gündən buradayıq, yaradılan şərait çox yaxşıdır. Bütün bunlara görə minnətdarıq. Belə tədbirlər torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatçılarının min bir zəhmətlə yetişdirdikləri məhsulları rahatlıqla satmalarına və ailə gəlirlərini artırmalarına şərait yaratmaqla yanaşı, həm də daxili bazarı yerli məhsullarla təmin edir. Yerli məhsullarımız isə həm dad-tamı, həm keyfiyyəti, həm də qiyməti ilə sakinlərin ürəyincədir.



Sədərək rayon sakini ***Nazilə Əliyeva*** Sədərəkdə fəal qadın ailə təsərrüfatçılarından biridir.

O deyir:

– Rayonumuzda kənd təsərrüfatının inkişafı üçün hərtərəfli imkanlar yaradılıb. Kim istəyir, ailə təsərrüfatı yaradır. İşləyən, zəhmət çəkənlər dövlətimizin qayğısından güc alaraq sahibkara çevrilir, öz ailəsi ilə bərabər bir neçə ailənin də çörək pulu qazanmasına kömək edir. Həyətyanı sahəmdə və pay torpağımda əkib-becərdiyim məhsullardan hazırladığım yeməkləri, müxtəlif turşu növlərini, mürəbbə, doşab, meyvə cemlərini yarmarkaya gətirmişəm. Bunlarla yanaşı, qida kimi istifadə olunan yabanı bitkilərin, gündəlik istifadə etdiyimiz göyərtilərin qurudulmuşu da alıcıların diqqətini çəkir.



Babək rayon Aşağı Buzqov kənd sakini ***Orhan Baxşəliyev*** də ailə təsərrüfatı sahibidir. O, yarmarkaya müxtəlif meyvələr gətirib. Deyir ki, meyvəçilik və maldarlıqla məşğuldur. Münbit torpağımız və dövlət qayğısı bizi öz elimizə, obamıza daha möhkəm bağlayıb. Əkib-becərib əmək sərf edir, qarşılığını isə ikiqat görürük. İndi istər qadın, istərsə də kişi olsun, zəhmət çəkən bəhrəsini dadır. Dövlətimiz bizim yaxşı dolanışığımız üçün hər cür şərait yaradıb. Məhsulumuzu istədiyimiz kimi satır, ailə büdcəmizə kömək edirik. Bu cür yarmarkaların təşkili hamımızın ürəyincədir.

Naxçıvan şəhər sakini ***Fatma Əliyeva*** deyir ki, məzrə, nanə, reyhan, şüyüd, keşniş qurusu alıb. Elə yeməklər var ki, onlara göyərti qurusu əlavə edəndə daha dadlı olur. Bir qismini uzaqda yaşayan qohum-əqrəbama sovqat göndərəcəyəm. Bu cür yarmarkaların önəmindən danışan şəhər sakini onu da bildirir ki, yarmarkaların təşkili uzaqları yaxın edir. Bir meyvə qurusu və ya cəviz mürəbbəsi almaq üçün Ordubada və ya dastana almaq üçün Sədərəyə gedə bilmərik, amma dövlətimizin yaratdığı bu şəraitdən bəhrələnərək nə istəsək ala bilərik. Sədərək rayonunun satış stendindən təndir dastanası, Ordubad rayonundan gətirilən sucuq, alana, cəviz mürəbbəsi, Şərurun bərəkətli torpağında yetişən göycə, şaftalı qurusu aldım.

Alıcılardan Naxçıvan şəhər sakini 70 yaşlı ***Bəyim nənə***nin dediklərindən:

– Bu günlərdə biz qadınları düşündürən əsas məsələ qarşıdan gələn yeni ildə süfrəmizi necə bəzəyəcəyimizdir. Əvvəllər bayram yaxınlaşanda bilmirdik ki, neyləyək. 90-cı illərin əvvəlləri yaxşı yadımdadır, nə bir meyvə, nə tərəvəz, nə də ki, ət olurdu bişirib süfrəyə qoymağa. Uşağın da, qonağın da yanında üzüqara olurdu insan. Bu gün isə, min şükür, sağ olsun dövlətimizi, bolluq yaradıb. Ürəyin istəyəni alıb süfrəyə qoya bilirsən.

Satıcı və alıcılarla söhbətdən sonra belə qənaətə gəlirik ki, muxtar respublikamızda bütün sahələrlə yanaşı, kənd təsərrüfatının da inkişafına münbit şərait yaradılır, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına dəstək göstərilir. Qəbul edilən Dövlət proqramlarından irəli gələn vəzifələr uğurla icra olunur. Bütün bunlar daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların satışına imkan verir. Mərkəzi bazarda təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı, bayram yarmarkalarında məhsul bolluğu deməyə əsas verir ki, həyata keçirilən tədbirlər öz töhfəsini verəcək.

Qeyd edək ki, dekabrın 25-də başlayan və beş gün davam edəcək yarmarkaya muxtar respublikanın bütün bölgələrindən onlarla ailə təsərrüfatı və istehsal müəssisələri istehsal etdikləri müxtəlif növ məhsullarla alıcıların xidmətində olacaqlar.

Məlumat üçün bildirək ki, bayram yarmarkasının ilk 2 günündə (25-26 dekabr 2021-ci il) 243 ailə təsərrüfatı, 31 sənaye və topdansatış müəssisələri iştirak etmiş, yarmarkaya 288 növdə məhsul çıxarılmışdır.

**✍ Ramiyyə ƏKBƏROVA**

# Məktəblərimizdə fiziki tərbiyənin (mədəniyyətin) formalaşması, idman klublarının yaradılması kütləviliyə birbaşa təsir göstərib

***Bu gün orta məktəblərdə şagirdlərin fiziki tərbiyəsi təlim-tərbiyənin ən vacib məsələlərindəndir. Müstəqil Azərbaycanın təhsil sistemində aparılan islahatlar dərslərin məzmun və formaca yeniləşməsini tələb edir. Buna görə də fiziki tərbiyə üzrə dərs və məşğələlərin təkmilləşdirilməsi, yeni tədris metodlarının istifadə edilməsi zərurətini ortaya çıxarır. Ümumiyyətlə, orta məktəblərdə tədris edilən fiziki tərbiyə bədən mədəniyyətinin tərbiyəsidir. O təkcə orqanizmi deyil, həm də uşaqlarda sinir sistemini inkişaf etdirir, zehni sistemin normallaşmasını təmin edir, beyindəki gərginliyi aradan qaldırmağa və başın aydınlaşmasına köməklik göstərir.***

### *Əsas vəzifə...*

Fiziki tərbiyə dərsi sağlam həyat tərzinin əsas komponentlərindən biridir. Bu dərslərin əsas məqsədi uşaqlarda fiziki fəaliyyətin və müxtəlif fiziki keyfiyyətlərin inkişaf etdirilməsi, məktəblilərə sağlam həyat tərzinin əsaslarının öyrədilməsindən ibarətdir.

Həkimlərin Avropa ölkələrində məktəblilərin sağlamlıq vəziyyəti ilə əlaqədar apardığı testlərdən sonra məlum olub ki, ibtidai sinif şagirdlərinin yalnız 70 faizi tam sağlamdır. Müəyyən yaşdan sonra (12 yaşdan) bu faiz daha da aşağı düşür. Alimlərin fikrincə, sağlam uşaqların göstəricilərinin bu şəkildə aşağı düşməsi onların həyatında idmanın olmaması ilə birbaşa bağlıdır. Mütəxəssislər bildirirlər ki, bu mənfi halı aradan qaldırmaq üçün mütləq şəkildə məktəblərdə fiziki tərbiyə dərslərinin saatları çoxaldılmalı, uşaqlar idmana cəlb edilməlidir. Bu həm də cəmiyyət üçün mühüm dəyərlərin formalaşması deməkdir.

Zəhmət, ambisiya, səbir, təşəbbüs və iradi keyfiyyətlər məktəblərdə uşaqları idmanla ciddi və hərtərəfli məşğul olmalarına sövq edə bilər. Təbii ki, bu, fiziki tərbiyə müəllimlərinin üzərinə düşən məsələdir. Burada bir məqama isə xüsusilə diqqət yetirmək lazımdır: müəllim orta məktəb şagirdinə “yalnız öz gücünə arxalan” deməməlidir. Buna görə də ekspertlər müəllimləri uşaqlarla təkcə fiziki cəhətdən yox, eyni zamanda mənəvi, psixoloji və digər fəaliyyətlərlə məşğul olmağa da çağırır. Çünki məktəblərdə uşaqlar zehni stresi yalnız fiziki tərbiyə ilə “üzərlərindən” ata bilərlər. Təbii ki, tam fiziki inkişaf üçün məktəbdə təkcə bədən tərbiyəsi dərsləri kifayət etmir – uşaqların hər hansı bir idman növünə yazılmaları da şərtdir.

### *Naxçıvanda fiziki tərbiyənin geniş aspekti*

Fiziki tərbiyə və idmanın inkişafına böyük diqqət ayıran ümummilli lider Heydər Əliyev çıxışlarının birində bu haqda belə demişdir: ***“İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir”.***

Bəli, bu gün Naxçıvan Muxtar Respublikasının fəaliyyət göstərən təhsil ocaqlarında şagirdlərin fiziki tərbiyəsinə geniş aspektdən yanaşılır. Nəticədə, idmanın inkişafı naminə fiziki tərbiyə əməli işlərlə, sistemli şəkildə həyata keçirilir. Uşaqların təlim-tərbiyəsi yolunda atılan hər bir mütərəqqi addım isə onların sağlam bədənli, sağlam ruhlu, hərtərəfli inkişaf etmiş bir gənc kimi yetişməsində bir töhfədir.

Bu gün muxtar respublika məktəblərində fiziki tərbiyə və idman sahəsi üzrə aparılan işlərin bir məqsədi var: yaşından, etnik mənşəyindən, sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, məşqçi və şagirdlərin dinamik şəbəkəsini yaratmaq, idmanla kütləvi şəkildə məşğul olmaq üçün uşaqların kütləviliyini təmin etmək. Ümumiyyətlə, şagirdlərin inkişaf səviyyəsi onların fərdi bacarıq və keyfiyyətlərinin üzə çıxarılması, inkişaf etdirilməsi və istifadə olunması dərəcəsi ilə ölçülür. Bu zaman uşaqların müxtəlif yaş dövrlərində, əsasən də, orta siniflərdə mədəni dəyərlər sisteminin əsas komponentlərindən biri olan sağlamlığını və fiziki hazırlıq səviyyəsini yüksəltməsi diqqətdə saxlanılmalıdır. Çünki digər mədəni dəyərlərin inkişafı və formalaşması çox vaxt bu kriteriyalardan asılı olur.

### *Məktəblərimizin idman klubları*

Fiziki tərbiyə uşaqlarda müsbət əxlaqi keyfiyyətlər – Vətənə məhəbbət, özünəinam, səbir formalaşdırır. Məhz bu amil muxtar respublikamızın bütün ümumtəhsil məktəblərində bəhs olunan fənnin tədrisinə əlavə stimul yaradır. Digər məsələ isə ümumtəhsil məktəblərində 12 idman növü üzrə 202 idman klubunun yaradılmasıdır. Hər bir idman növünə görə klubların avadanlıqlarla təmin edilməsi isə uşaqlarda idmana marağı artırıb, eyni zamanda muxtar respublikada idmanın kütləviliyinə nail olunmasına zəmin yaradıb. Klubların fəaliyyətini, uşaqların idman növlərinə olan marağını yaxından görmək üçün bir neçə məşqlərində iştirak etdik.





Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə basketbol klubu yaradılıb. Hazırda klubun 20-dən çox üzvü var. Onlar fiziki tərbiyə dərslərində, eyni zamanda dərsdənkənar bu məşğələlərdə iştirak edirlər. Məşqçi-müəllim ***Xəzər Məmmədov*** bizimlə söhbətində bildirdi ki, klub 2020-ci ildən fəaliyyət göstərir, yarandığı gündən şagirdlər tərəfindən böyük maraqla qarşılanıb və qısa vaxt kəsiyində bura müraciət edənlərin sayı çoxalıb. Həftədə iki dəfə olmaqla, basketbol dərsləri keçirik. Şagirdlərin idmanla məşğul olmaları onların dərsdən sonra asudə vaxtlarının səmərəli keçirilməsinə, sağlam böyüməsinə, eyni zamanda zərərli vərdişlərdən uzaq durmasına səbəb olur. Ümumiyyətlə, muxtar respublikamızda şagirdlərin, gənc nəslin sağlam böyüməsi, onların cəmiyyətə sağlam fərd kimi inteqrasiya olması üçün mütəmadi işlər görülür. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində idman klublarının yaradılması idmanda kütləviliyin artmasına, inkişafına və perspektivli gənclərin üzə çıxarılmasına səbəb olub.

Basketbol klubunun ən fəal üzvlərindən olan ***Mirtofiq Seyidli*** və ***Maral Tarverdiyeva*** söhbətlərində bildirdilər ki, bu gün onların təhsil aldıqları orta məktəbdə bu klubun olması şagirdlər üçün əlavə üstünlükdür. Çünki fiziki tərbiyə dərsləri ilə yanaşı, dərsdənkənar vaxtlarımızda da bu idman növü ilə məşğul oluruq. Bu da yarışlarda uğur qazanmağımıza şərait yaradır. Həmçinin bilmədiyimiz və ya oyunlarda səhv etdiyimiz hərəkətlər üzərində çalışır, növbəti yarışlara ciddi hazırlaşırıq.

Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbdə isə şagirdlər üçün həftənin 3 günü boks dərsləri keçilir. Azərbaycanın Əməkdar idman ustası, boks üzrə məşqçi-müəllim ***İsa Xəlilov*** tərəfindən keçilən dərslərdə 20-dən çox şagird iştirak edir. Bununla yanaşı, bu növə maraqgöstərən digər uşaqlar da məhz 11 nömrəli məktəbin idman zalında boksun sirlərini öyrənirlər. Şagirdlərin fiziki tərbiyəsi prosesinə kompleks yanaşan İsa Xəlilovun fikrincə, uşaqların fiziki sağlamlıq tədbirlərinin aparılmasında məktəb, ailə və ictimaiyyətin qarşılıqlı əlaqəsi vacibdir. Məhz bu amillərin birləşməsindən sonra idmançı çıxış edəcəyi turnirlərdə böyük uğur qazana bilər. Digər təhsil ocaqlarında olduğu kimi, bizim məktəbdə də bu iş həmişə lazımi səviyyədə həyata keçirilir, məktəb-valideyn-şagird əlaqələri yüksək səviyyədə təşkil olunur. Bunun nəticəsidir ki, məktəbimizin şagirdləri arasında idman yarışlarının qalibləri var. Məktəblərimizdə idman klublarının fəaliyyəti, həmçinin klublara idman avadanlıqlarının verilməsi şagirdləri, idmançıları daha səylə çalışmağa sövq edir.

Şagirdlərdən Ayxan Heydərov, Ramin Nağıyev və Hüseyn Vəlizadə keçirilən məşqlərin yüksək səviyyədə təşkilindən, yaradılan şəraitdən danışaraq qeyd etdilər ki, ən böyük arzuları Naxçıvanı beynəlxalq arenalarda təmsil etməkdir.

Göründüyü kimi, fiziki tərbiyə (fiziki mədəniyyət) istənilən fəaliyyət növü üçün zəruri olan müstəqil qərar vermək qabiliyyətini uşaqda formalaşdırır. Məhz bu səbəbdən muxtar respublikamızın ümumtəhsil məktəblərində fiziki tərbiyə təhsil prosesinin əsas elementi hesab edilir.

### *Haşiyə...*

Bəzən elə məqamlar olur ki, valideyn uşaqlarını idmandan uzaqlaşdırır və ya onların yaradılan klubda iştirakına qadağa qoyur. Təbii ki, bu addım uşaq psixologiyasına da təsir göstərir və onu elə də formalaşdırır. Bu zaman uşaqda bir tərəddüd yaranır: oxuyum, ya idmanla məşğul olum? Hər kəs idmanın uşağın təhsilinə mane olduğunu düşünür, lakin bu hal öncə valideynlərə fərqli şəkildə təlqin edilərsə, o zaman yanaşma da dəyişər. Burada öncəlik stimullaşdırıcı tədbirlərin – maariflənmənin olmasıdır. İdmanla məşğul olmaq zehni təmizləyir, mənfi enerjini, stresi, gərginliyi aradan qaldırır. İdman insanda fərqli keyfiyyətlər formalaşdırır – səbir etməyi, qələbə sevincini, məğlubiyyətdən dərs çıxarmağı öyrədir.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 14 yanvar 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manatla) | İlkin satış qiyməti 5% həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|
| 1. | 106013000621-10301 reyestr nömrəli, 2799 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 9 otaqlı, 517.83 kvadratmetri ümumi, 238.45 kvadratmetri yaşayış, 279.38 kvadratmetri yardımçı sahədən ibarət fərdi yaşayış evi | Culfa rayonu, Kırna kəndi | 97.200 | 4.860 |
| 2. | 106013000656-06301 reyestr nömrəli, 5400 kvadratmetr torpaq sahəsində yerləşən ümumi sahəsi 2505.05 kvadratmetr olan qeyri-yaşayış binası | Culfa rayonu, Kırna kəndi | 115.600 | 5.780 |
| 3. | 1404013009242-10301 reyestr nömrəli, 600 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 312.42 kvadratmetri ümumi, 114.47 kvadratmetri yaşayış, 197.95 kvadratmetri yardımçı sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, A.Zamanov küçəsi, ev 54 | 181.000 | 9.050 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 11 yanvar 2022-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür. Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 14 yanvar 2022-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: (036) 545-01-38 mobil: (060) 265-60-45***

## Beşgünlük tibbi aksiya keçirilib



Həyata keçirilən geniş Dövlət proqramları nəticəsində bu gün ölkə vətəndaşları səhiyyə sahəsində də ən yüksək xidmətlə təmin olunurlar. Bu istiqamətdə görülən işlərə muxtar respublikamızda da verilən töhfələr ölkəmizdə reallaşdırılan sosial siyasətə dəstək xarakteri daşıyır.



Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti tərəfindən bu il dekabrın 20-dən 25-dək Şərur Rayon Mərkəzi Xəstəxanasında keçirilən humanitar tibbi aksiyada əhalinin sağlamlığının mühafizəsinə yönəlmiş uğurlu tədbirlərdən biridir.

Aksiyada respublika Klinik Xəstəxanasının 21 yüksəkixtisaslı həkimi təmsil olunub. Qeyd edək ki, aksiya müddətində pasiyentlər müxtəlif tibbi xidmətlərlə əhatə ediliblər. Həkim heyəti tərəfindən əməliyyat olunması məsləhət bilinən sakinlərin pulsuz cərrahiyyə əməliyyatı da aparılıb. Cərrahi müdaxiləyə ehtiyacı olan 126 rayon sakini üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar həyata keçirilib.

Xatırladaq ki, müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait də yaradılıb. Aksiya çərçivəsində Şərur Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti Bakıdan gələn həkimlərlə birgə əhaliyə xidmət göstəriblər.

Vətəndaşlar onlara göstərilən tibbi xidmətdən razılıqlarını bildiriblər.

Qeyd edək ki, beşgünlük humanitar tibbi aksiyadan 2 minə yaxın (1963 nəfər) rayon sakini yararlanıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Mahmudkənd sakini Bayramova Aynurə Abbas qızının adına olan JN-$33^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1084